# Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyası



Aynur Şixiyeva
Gəncə şəhər 4 nömrəli Uşaq Musiqi Məktəbinin direktoru, Gəncə Dövlət Universitetinin "Musiqi Fənləri" kafedrasının Musiqi sənəti ixtisası üzrə dissertantı

Şeyx Nizami Gəncəvinin yurdu doğma Gəncə şəhəri sürətlə inkişaf etməkdə və müasirləşməkdədir. Qədim Gəncə illər keçdikcə yeni müasir simasına qovuşur. Möhtərəm Cənab Prezident İlham Əliyevin diqqət və qayğısı Gəncədən də yan keçmir. Dövlət başçısının rəhbərliyi və tövsiyyələri ilə bu gün Gəncə şəhəri günü gündən abadlaşır , tarixi şöhrətini bərpa edir və ölkəmizin əsas mədəniyyət mərkəzlərindən birinə çevrilir.

Beş min ildən artıq tarixi olan çinarlar yurdu, qədim Gəncədə bir sıra mədəniyyət müəssisələri fəaliyyət göstərməkdədir. Gəncədə yerləşən mədəniyyət ocaqları sırasında öz görkəmi ilə Gəncənin gözəlliyinə rəng qatan möhtəşəm və əzəmətli bina Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasıdır. Gəncə Dövlət Filarmoniyası Gəncədə doğulub, boya-başa çatan Fikrət Məşədi Cəmil oğlu Əmirovun adını daşıyır.



Qeyd etmək lazımdır ki, Gəncə Dövlət Filarmoniyasının əsası Azərbaycan peşəkar bəstəkarlıq məktəbinin, Azərbaycan professional klassik musiqisinin banisi Üzeyir Hacıbəyli (18 sentyabr 1885, Ağcabədi – 23 noyabr 1948, Bakı) tərəfindən qoyulmuşdur. Böyük Vətən Müharibəsi illərində görkəmli Azərbaycan bəstəkarı Fikrət Əmirov (22 noyabr 1922, Gəncə – 20 fevral 1984, Bakı) ordudan təxris olunaraq Gəncəyə gəlir və bəstəkarlıq fəaliyyətini davam etdirir. Fikrət Əmirov Gəncədə ilk musiqi məktəbinə rəhbərlik etməklə yanaşı Gəncə Dövlət Filarmoniyasında orkestrin bədii rəhbəri kimi çalışmışdır. Həmin illərdə Xalq Artisti Məhəmməd Bürcəliyev Gəncə Dövlət Filarmoniyasının direktoru vəzifəsinə təyin olunmuşdur. 1949-cu ildən etibarən Gəncə Dövlət Filarmoniyasının fəaliyyəti dayandırılır.



Uzun illər sonra 1968-ci ildə Gəncə Dövlət Filarmoniyası yenidən fəaliyyətə başlayır. Həmin illərdə Əməkdar Mədəniyyət İşçisi Şirin Rzayev Gəncədə simfonik orkestr yaradır və 1980-ci illərə qədər orkestrə bədii rəhbərlik edir.

Görkəmli Azərbaycan bəstəkarı Fikrət Əmirov bu orkestri belə dəyərləndirmişdir: " Vaxtilə dahi Üzeyir Hacıbəyli Gəncədə bir neçə dəfə olmuşdur. Hər dəfə Qədim Gəncəyə gələndə burada yeni-yeni bədii kollektivlər yaratma , təşkil etmə arzusu ilə yaşamışdır. İndi kaş Üzeyir bəy sağ olaydı və Gəncəmizdə təşkil edilmiş bu istedadlı kollektivi öz gözləri ilə görəydi. Bizim üçün bundan əziz, bundan qiymətli, bundan böyük hədiyyə nə ola bilər di ki ?! Heç təsəvvürümə gətirə bilmirəm."

Xalq artisti, tanımış bəstəkar Cahangir Cahangirovun sinfində, Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında təhsil alan Şirin Rzayevin üzərinə böyük məsuliyyət düşür. Şirin Rzayev 1990-cı ildə Gəncə Dövlət Filarmoniyasının direktoru vəzifəsinə təyin olunur.

Elə həmin ildə Filarmoniyaya Fikrət Əmirovun adı verilmişdir. 1990-cı ildən etibarən Şirin Rzayev "Göy-göl" Mahnı və Rəqs ansamblına da rəhbərlik etməyə başlayır.



Qeyd etmək lazımdır ki, "Göy-göl" Dövlət Mahnı və Rəqs ansamblı 1969-cu ildə xalq artisti Fikrət Verdiyev tərəfindən yaradılmışdır. Şirin Rzayev o dövrdə Respublikanın Əməkdar Artisti Elçin Elçiyevlə birgə Xalq Çalğı Alətləri Orkestrini yaratmışdır. Şirin Rzayev 1996-1997-ci ildə Gəncə Dövlət Filarmoniyasından ayrılır.

1996-ci ildən 2016-ci ilə dək Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasının direktoru, "Göy-Göl" Dövlət Mahnı və Rəqs Ansamblı və Xalq Çalğı Alətləri Orkestrinin bədii rəhbəri vəzifəsinə Azərbaycan Respublikasının Xalq artisti Şahnaz Haşımova təyin olunur.



2017-ci ildə Gəncə Dövlət Filarmoniyasına Azərbaycan Respublikasının Xalq Artisti Samir Cəfərov , 2019-cu ildə





isə Respublikanın Əməkdar Mədəniyyət İşçisi Elçin Elçiyev rəhbərlik etmişdir.

Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasının yeni binası Gəncənin görünüşünə xüsusi estetik gözəllik bəxş edir. Filarmoniyanın binası Cavad Xan və Həsən bəy Zərdabi küçələrinin kəsişməsində yerləşir. Binanın təməli 21 yavar 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gəncəyə səfəri zamanı qoyulmuşdur. 10 noyabr 2017-ci ildə Prezident İlham Əliyevin iştirakı ilə Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasının yeni binasının açılış mərasimi baş tutdu. Bu əlamətdar gün mədəniyyət sahəsinə göstərilən yüksək diqqət və qayğının təcəssümü idi.

Bu gün Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyası bir sıra tədbir, konsert və festivallara ev sahibliyi edir. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi, Gəncə Regional Mədəniyyət İdarəsinin təşəbbüsü və «İrsimizin Tədqiqi və Təbliği» İctimai Birliyinin birgə təşkilatçılığı ilə Azərbaycanın görkəmli bəstəkarı, SSRİ Xalq artisti, Azərbaycan SSRİ Dövlət mükafatları laureatı, Azərbaycan SSRİ Elmlər Akademiyasının müxbir üzvü, ictimai xadim Fikrət Məşədi Cəmil oğlu Əmirovun 100 illiyinə həsr olunmuş ədəbi-bədii gecə məhz bəstəkarın adını daşıyan möhtəşəm filarmoniyanın səhnəsində keçirilmişdir.

Hazırda Gəncə Dövlət Filarmoniyasında Sahil Quliyevin rəhbərliyi ilə "Göygöl" Dövlət mahnı və rəqs ansamblı , Əməkdar Mədəniyyət İşçisi Elçin Elçiyevin rəhbərliyi ilə Xalq çalğı alətləri orkestri, Xalq Artisti Rafael Bayramovun Rəhbərliyi ilə Kamera orkestri, Şəhriyar Tağıyevin rəhbərliyi ilə "Xəmsə" estrada ansamblı fəaliyyət göstərir. Gəncə Dövlət Filarmoniyasında fəaliyyət göstərən orkestr və ansambllar ölkəmizi qürurla təmsil etmiş, Respublikamızın hüdudlarından kənarda da bir sıra uğurlara imza atmışdır.

2022-ci ildə Azərbaycan Respublikasının Mədəniyyət naziri cənab Anar Kərimovun müvafiq əmri ilə Rəşad Rauf oğlu Yusifov Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasına direktor vəzifəsinə təyin olunmuşdur.